# Zəfər tarixinin xronikası

## 12 oktyabr 2020-ci il



**Həmin gün:**

– Prezident İlham Əliyev Türkiyənin “Haber Global” televiziya kanalına müsahibə verib. Dövlətimizin başçısı müsahibəsində Gəncənin bombardman edilməsi nəticəsində mülki vətəndaşların həlak olmalarının erməni faşizminin eybəcər sifətinin növbəti təzahürü olduğunu vurğulayıb;

– Xarici İşlər naziri Ceyhun Bayramov ölkəmizdəki diplomatik korpusun rəhbərləri üçün keçirdiyi brifinqdə Ermənistanın oktyabrın 10-dan etibarən humanitar atəşkəslə bağlı Moskva razılaşmasını kobud şəkildə pozaraq Azərbaycanın yaşayış məntəqələrini və mülki şəxslərini məqsədli şəkildə atəşə tutması barədə məlumat verib. Humanitar atəşkəsin müəyyən olunduğu vaxtdan sonra təmas xəttindən xeyli uzaqda yerləşən, Azərbaycanın ikinci böyük şəhəri Gəncənin Ermənistan silahlı qüvvələri tərəfindən raket atəşinə məruz qaldığı və bu hücum nəticəsində 9 mülki şəxsin həlak olduğu, o cümlədən aralarında azyaşlı uşaqlar olmaqla, 35 nəfərin yaralandığı diqqətə çatdırılıb;

– Xarici İşlər naziri Ceyhun Bayramov ilə Slovakiya Respublikasının Xarici və Avropa İşləri naziri İvan Korçok arasında telefon danışığı olub. Nazir Ceyhun Bayramov oktyabrın 10-da humanitar atəşkəs elan olunduqdan sonra da Ermənistanın Azərbaycanın dinc əhalisini və mülki obyektlərini qəsdən atəşə tutmaqda davam etdiyini bildirib. Naftalan, Şəmkir, Mingəçevir və Gəncə də daxil olmaqla cəbhə bölgəsindən xeyli uzaqda yerləşən yeraltı sığınacaq və düşmənin geri çəkilən bölməsinin 2 texnikası məhv edilib.

Məlumata əsasən canlı qüvvə sarıdan xeyli itki verən düşmən ordusunda ölənlər arasında 246-cı alayın tabor komandiri polkovnik-leytenant Artur Qriqoryan da var.

Ermənistan silahlı qüvvələrinin 1-ci alayının müdafiə sahəsində geri çəkilən bölmələr arasında rabitə və qarşılıqlı əlaqənin pozulması səbəbindən bölmələr bir-birinə atəş açıb. Tankələyinə və digər bölmənin şəxsi heyəti də döyüş mövqelərini tərk edib.

Hazırda qoşunlarımız bütün cəbhə boyu əməliyyat üstünlüyünə malikdir.

***

Bu gün Ermənistan tərəfi növbəti dəfə Azərbaycan Ordusunun pilotsuz uçuş aparatını (PUA) vurduğunu elan edib və bunu təsdiqləmək üçün guya həmin PUA-nın videokadrlarını yayıb. Lakin bu videonun yavaşıdılmış kadrlarına ötəri baxış etməklə havadan düşən və parlaq alovla yanan “PUA-nın” “An-2” yüngül çoxməqsədli təyyarə olduğunu dəqiq görmək olar.

Bunu Müdafiə Nazirliyinin mətbuat xidmətinin rəisi polkovnik Vaqif Dərgahlı deyib.

V.Dərgahlı bildirib: “Sual olunur, Azərbaycan Ordusunun sərəncamında ən müasir silah növləri və ən yeni hərbi texnika olduğu halda kənd təsərrüfatı üçün nəzərdə tutulmuş “kukuruznik” ordumuzun nəyinə gərəkdir? Cavab sadədir: Bu üsulla erməni təşviqatı qrafika və animasiyadan istifadə etməklə öz ictimaiyyətini aldatmaq,



Azərbaycan şəhərlərinin Ermənistan silahlı qüvvələrinin artilleriya atəşinə məruz qaldığı diqqətə çatdırılıb;

– Baş prokuror Kamran Əliyev ilə Rusiya Federasiyasının Baş prokuroru İqor Krasnov arasında telefon danışığı olub. Azərbaycanın Baş prokuroru oktyabrın 11-də gecə saatlarında Ermənistan silahlı qüvvələri tərəfindən respublikamızın ikinci böyük şəhəri olan, döyüş bölgəsindən xeyli uzaqda yerləşən Gəncəyə qarşı törədilən terror aktı barədə rusiyalı həmkarını məlumatlandırıb;

– Türk Şurası Azərbaycanın Gəncə şəhərinin Ermənistan silahlı qüvvələri tərəfindən raket atəşinə tutulmasını pisləyən bəyanat yayıb.

***

Müdafiə Nazirliyindən bildirilib ki, humanitar atəşkəs rejiminə əməl etməyən Ermənistan silahlı qüvvələrinin bölmələri itirdikləri mövqeləri geri qaytarmaq məqsədilə cəbhənin Ağdərə-Ağdam və Füzuli-Cəbrayıl istiqamətlərində bir neçə dəfə kiçik qruplarla Azərbaycan Ordusunun mövqelərinə basqın etməyə cəhd göstərib.

Həyata keçirilən fəaliyyətlər nəticəsində cəbhənin müxtəlif istiqamətlərində düşmənin xeyli sayda canlı qüvvəsi, 3 ədəd BM-21 “Qrad” yaylım atəşli reaktiv sistemi, 1 ədəd T-72 tankı, bir neçə avtomobil texnikası sıradan çıxarılıb.

Əldə olunan məlumata əsasən döyüş əməliyyatları zamanı Ermənistan silahlı qüvvələrinin 9-cu alayının artilleriya rəisi tabeliyində olan bölmə ilə Hadrut yaşayış məntəqəsi istiqamətindən geri çəkilib, alayın 5-ci taborunun şəxsi heyəti isə təhkim olunmuş texnikanı döyüş mövqelərində qoyub qaçıb. Bundan əlavə, 5-ci və 522-ci alayın şəxsi heyəti avtomobil və zirehli texnikalarını da mövqelərdə ataraq geri çəkilib.

Qırmızı Bazar məntəqəsi istiqamətinə endirilən artilleriya zərbəsi nəticəsində 1-ci alayın daimi dislokasiya məntəqəsində

eləcə də erməni əsgərinin mənəvi durumunu yüksəltmək üçün uğursuz cəhdlər göstərir. Bir sözlə, bütün PUA-larımız sağ-salamat və döyüş sırasındadır”.

***

Azərbaycan Respublikasının Baş Prokurorluğu Ermənistanın təxribatları nəticəsində sentyabrın 27-dən oktyabrın 12-si saat 12:00-dək dinc əhaliyə qarşı törədilmiş cinayətlərin statistikasını təqdim edib. Bildirilib ki, Ermənistan silahlı qüvvələrinin yaşayış məntəqələrimizi ağır artilleriya qurğularından və raket sistemlərindən atəşə tutması nəticəsində mülki şəxslərdən 41 nəfər həlak olub, 207 nəfər isə xəsarət alıb. Bundan başqa, Ermənistan ordusunun intensiv ağır artilleriya və raket atəşi nəticəsində 1185 ev, 57 çoxmənzilli yaşayış binası və 148 mülki obyekt yararsız vəziyyətə düşüb.

Qeyd edək ki, rəşadətli Azərbaycan Ordusunun sarsıdıcı cavab zərbələri qarşısında sürətlə geri çəkilən düşmən beynəlxalq hüququn norma və prinsiplərini, 1949-cu il tarixli Cenevrə konvensiyaları və onların Əlavə protokollarını, BMT-nin Təhlükəsizlik Şurasının qərar və qətnamələrini kobud şəkildə pozaraq, Azərbaycanın dinc əhalisini qəsdən hədəfə almaqla döyüş əməliyyatlarının aparıldığı bölgədən uzaqlıqda yerləşən Azərbaycan şəhərlərini və əhalinin sıx yaşadığı məntəqələri intensiv atəşə tutur.

***

Rusiyanın “Kommersant”, Almaniyanın “Wochenblatt” nəşrlərində Ermənistanın müharibə cinayətləri haqqında, eləcə də Gəncəni raket atəşinə tutması barədə məqalələr dərc edilib. BBC işğalçının yeni ərazi iddiaları ilə bağlı reportaj yayımlayıb. “Euronews” saytında isə “Dağlıq Qarabağ: gərginliyin yeni mərhələsi” sərlövhəli yazı yerləşdirilib.

*“Xalq qəzeti”*